ISSN-0207-4710
2006-cı il

# GÖYƏRÇİN

10

NAĞILLAR
ŞEIRLƏR
OYUNLAR



# NAĞIL VAXTI

Avstraliya nağılı

## İLAN NECƏ ZƏHƏRLİ OLDU

Bu hadisə o zaman olub ki, insanların çoxu hələ heyvan kimi yaşayırdılar.

Yer üzündə qorxunc, nəhəng, çox zəhərli bir kərtənkələ yaşayırmış. O, belində zəhərlə dolu bir kisə daşıyar, canlıları o zəhərlə öldürüb, sonra onları yeyərmiş. İnsanların sayı gündən-günə azalarmış.

O zaman insanlar da heyvanların qohumu imişlər. Elə buna görə də bütün canlılar bir yerə yığışıb vəziyyətdən çıxış yolu axtardılar. Hərə bir məsləhət verdi. Axırda belə qərara gəldilər ki, hiyləgər ilanı kərtənkələnin yanına göndərsinlər ki, onun zəhər tuluğunu oğurlasın.

Hiyləgər ilan razılaşdı. Fikirləşdi ki, kəltənkələnin zəhər tuluğunu oğurlayıb özümdə saxlayaram. Əgər belə etsəm, bütün canlılar məndən qorxacaqlar.

İlan sürünə-sürünə kərtənkələnin yanına gəldi. Gördü ki, qorxunc heyvan bərk yatıb. Onu yuxudan ayıldıb dedi:

- Oyan, ay dünyadan xəbərsiz! Bütün heyvanlar bir yerə yığışıb səni öldürmək qərarına gəliblər. Ancaq sən ehtiyat üçün zəhər kisəni ver mən saxlayım.

Axmaq kərtənkələ hiyləgər ilana inandı və öz zəhər kisəsini ona verdi.

İlan zəhərlə dolu kisəni götürən kimi sürünüb aradan çıxdı.

Kərtənkələ onu qovsa da tuta bilmədi.

O vaxtdan kərtənkələ insanları yeyə bilmir, ancaq cücü-mücü ilə, böcəklərlə qidalanır.

Hiyləgər ilan isə o vaxtdan zəhərlidir.





## NƏHƏNG QURBAĞANIN GÜLÜŞÜ

Rəssam
İlqar

Bu hadisə lap qədim zamanlarda, bizim ulu babalarımız dünyaya gəlmədiyi vaxt olmuşdu.

Yayın qızmar bir çağı idi. Bulaqlar, çaylar qurumuşdu. Hovuzların suyu buxarlanmışdı. Yer üzündəki bütün canlılar istiyə, susuzluğa tab gətirməyib ölürdülər. Sağ qalanlar dəhşət içində ətrafa baxır, bir çıxış yolu axtarırdılar. Günəş yandırıb-yaxırdı. Səmada buludlar görünmürdü. Daldalanmağa bircə dənə kölgəlik də yox idi. Dünyanın üzünə ölüm kölgəsi çökmüşdü.

Sağ qalan canlılar bir yerə yığışıb məsləhətləşdilər. Məlum oldu kt, dünyanın bütün sularını yekə, yepyekə bir qurbağa içib.

Sağ qalanlar belə qərara gəldiler ki, gedib qurbağanı tapmaq, nə yolla olur olsun, onu güldürmək lazımdır ki, ağzından su tökülsün.

Heyvanlar qurbağanı güldürmək üçün minbir oyundan çıxdılar. Quşların cəhdi də əbəs idi. Qurbağa gülmək bilmirdi ki, bilmirdi. O, ağzını bərk-bərk yumub heyvanlara baxırdı.

Nəhayət, balaca bir soxulcan sürünə - sürünə qurbağanın çənəsinin altına dırmandı və quyruğu ilə onu qıdıqlamağa başladı. Nəhəng qurbağa özünü gülməkdən saxlaya bilmədi. Elə güldü, elə güldü ki, su ağzından şəlalə kimi axıb bütün dünyanı tutdu.

Bulaqlar yenidən çağlamağa, çaylar yenidən axmağa başladı.

Beləliklə, dünyadakı bütün canlılar xilas edildi.